**İvan Turgenev**

# İLK MƏHƏBBƏT

Tərcüməçi:
Zülfiyyə Abdulla

qanun nəşriyyatı

Иван Тургенев

# ПЕРВАЯ ЛЮБОВЬ

Hadisələr Moskvada, zadəgan bir məhəllədə baş verir. Vladimir qonşuluğa köçən, cazibədar və bir qədər də sirli Zinaida Aleksandrovna ilə tanış olur. Gənc qızın evində daim şən məclislər, pərəstişkarlarla dolu qeyri-rəsmi yığıncaqlar keçirilir. Vladimir Zinaidaya vurulur, təsadüfən qızın gizli sevgilisi olduğu üzə çıxır. Həmin adamın kimliyi Vladimirin sevgi və ailə haqqında təsəvvürlərini alt-üst edir, onun həyatında psixoloji dönüş nöqtəsi olur.

“İlk məhəbbət” həm sevgi hekayəsi, həm də böyüməyin qaçılmaz ağrısı haqqında poetik və kədərli bir ədəbiyyat nümunəsidir.

*P. V. Annenkova*
*həsr edilir*

Qonaqlar çoxdan dağılışmışdı. Saat birin yarısını vurdu. Otaqda ancaq ev sahibi, Sergey Nikolayeviç, bir də Vladimir Petroviç qalmışdı.

Ev sahibi zəngi çalıb, şam yeməyinin qalıqlarını toplamağı tapşırdı.

– Beləliklə, qərar verildi, – o, dərin kresloya çöküb, siqar yandıraraq dilləndi. – Hər birimiz ilk məhəbbətimizin tarixçəsini danışmalıyıq. İlk sıra sizindir, Sergey Nikolayeviç.

Yumru, koppuş, ağbəniz sifətli adam olan Sergey Nikolayeviç əvvəl ev sahibinə, sonra gözlərini qaldırıb tavana baxdı.

– Mənim ilk məhəbbətim olmayıb, – o, nəhayət ki, dilləndi. – Birbaşa ikincidən başlamışam.

– O necə olur?

– Çox sadə. İlk dəfə çox gözəl bir qadının dalınca düşəndə on səkkiz yaşım var idi; amma ona qarşı elə davranırdım ki, elə bil bu mənim üçün təzə bir şey deyildi: sonra başqaları ilə də münasibətimi eynən o

cür qurdum. Düzünü deyim ki, ilk və son dəfə altı yaşımda öz dayəmə aşiq olmuşam; amma bu, çoxdan olub. Münasibətimizin incəlikləri çoxdan yadımdan çıxıb, lap yadımda qalmış olsa belə, bu kimi maraqlandıra bilər ki?

– Bəs indi necə olsun? – ev sahibi sözə başladı. – Mənim ilk məhəbbət əhvalatımda da maraqlı heç nə yoxdur: həyat yoldaşım Anna İvanovna ilə tanış olana qədər heç kimə aşiq olmamışdım. Bizim münasibətimiz çox rahat quruldu: atalarımız bizi nişanladılar, tez bir zamanda bir-birimizi sevdik və ləngimədən evləndik. Mənim nağılım iki kəlmə ilə tamamlanır. Cənablar, etiraf edim ki, ilk məhəbbət söhbətini açanda sizə ümidli idim, hər halda yaşlı olmasanız da, gənc də deyilsiniz, üstəlik subay insanlarsınız. Bəs siz könlümüzü aça biləcək əhvalat danışa biləcəksiniz, Vladimir Petroviç?

– Mənim ilk məhəbbətim, doğrudan da, qeyri-adi əhvalatlardandır, – qara saçlarına azacıq dən düşmüş qırx yaşlarında biri olan Vladimir Petroviç bir qədər duruxub dedi.

– A! – ev sahibi və Sergey Nikolayeviç bir ağızdan dilləndilər. – Lap yaxşı… danışın.

– İcazənizlə… ya da yox: danışmayacağam; mən nəql etməkdə usta deyiləm: ya çox quru və qısa, ya da uzun və süni alınır; icazə versəniz, yadıma düşən hər şeyi dəftərə yazıb, sonra da sizə oxuyardım.

Yoldaşları əvvəl razılaşmadılar, amma Vladimir Petroviç dediyində durdu. İki həftədən sonra yenidən yığışdılar və Vladimir Petroviç sözünə əməl etdi.

Dəftərdə bunlar yazılmışdı:

## I

On altı yaşım var idi. Hadisələr 1833-cü ilin yayında baş vermişdi.

Valideynlərimlə birlikdə Moskvada yaşayırdım. Kalujski zastavasının yaxınlığında, Neskuçnı bağı ilə üzbəüz bağ tutmuşduq. Universitetə hazırlaşırdım, amma çox az və tələsmədən çalışırdım.

Azadlığıma məhdudiyyət qoyan yox idi. İstədiyimi edirdim, ələlxüsus da Moskvaya "bomba kimi" (comme une bombe) düşdüyü fikrinə heç cür alışa bilməyən, üzündə qəddar ifadə ilə, bəzən bütün günü yataqda xumarlanan sonuncu fransız mürəbbimdən ayrıldıqdan sonra. Atam mənimlə laqeyd və mülayim rəftar edirdi; anam isə tək övladı olmağıma baxmayaraq, mənə heç fikir də vermirdi: başqa qayğıların içində itib-batmışdı. Hələ çox gənc və yaraşıqlı adam olan atam onunla mənfəəti üçün evlənmişdi; o, atamdan on yaş böyük idi. Anam çox kədərli həyat sürürdü: durmadan narahatlıq keçirir, qısqanır, hirslənirdi – amma əlbəttə ki, atam yanında olmayanda; ondan qorxduğu üçün narazılığını çox bəlli etmirdi. Atam

da ona heç üz vermirdi, özünü ciddi, soyuq, məsafəli aparırdı… Ömrümdə onun qədər nəcib, sakit, özündənrazı və özbaşına adam görməmişəm.

Bağda keçirdiyim ilk həftələrimi heç bir vaxt unutmayacağam. Hava gözəl keçirdi; şəhərdən mayın doqquzu, Nikola günündə gəldik. Bütün gün gəzirdim – ya evin bağçasında, ya Neskuçnı bağında, ya da zastavanın arxasında; özümlə kitab götürürdüm – məsələn, Kaydanovun[1] kursunu, – amma nadir hallarda üzünü açırdım, adətən, ucadan əzbər bildiyim çox sayda şeirləri deyirdim. Qanım qaynayırdı, ürəyim elə şirin-şirin, elə gülməli sızıldayırdı ki: elə hey nəsə gözləyirdim, nədənsə sıxılırdım, hər şeyə təəccüblənirdim və hər şeyə hazır idim; təxəyyülüm sübh çağı zəng qülləsinin başına fırlanan uzunqanad quşları kimi elə hey eyni xəyalların ətrafında fırlanırdı; fikrə dalır, kədərlənir, hətta ağlayırdım da. Amma ahəngli şeirlərin, axşamın gözəlliyinin gətirdiyi göz yaşlarının, kədərin arxasında belə gənc, qaynayan həyatın sevincli hissləri ilk yaz otları kimi cücərməyə davam edirdi.

Özümün atım var idi, özüm onu yəhərləyib uzaqlara çapır, yarışa çıxmış cəngavər olduğumu təsəvvür edirdim, külək qulaqlarımda elə şən vıyıldayırdı ki! Ya da başımı səmaya qaldırıb, onun parıldayan işığını və maviliyini ruhuma çəkirdim.

---

[1] İvan Kuzmiç Kaydanov, rus pedaqoqu, tarix dərsliklərinin müəllifi.